KÖNLÜ SÖZƏ SEVDALI

Yusif Nəğməkara məktub

Arazın qırmızı suyundan içən
Yusif Nəğməkara söz göndərirəm,
Başının üstündən durnalar köçən
Ellərin bağrından köz göndərirəm.

Əsrin boz üzündə Dədə adına,
Əkdiyi ağacın barına baxsın.
Sözün yaddaşına, sözün yadına,
Yazdığı dastana, varına baxsın.

Zamanla döyüşdə özü fədakar;
Sözün alovunu, odunu geyib.
Sazı da, sözü də odlu sənətkar,
İlhamını geyib, adını geyib.

Bilir ki, bu dövran necə zalımdı,
Neçə vaxtı yeyib, ömür çeynəyir.
Olumdu, ölümdü, yoxsa qalımdı;
Ona can lazımdı - sözü neynəyir?

Qanına bələyər girinə keçsən,
Zamanın əlində hər nə var əsir.
Zaman badəsini nuş edib içsən,
Zamanın özü də sözünə əsir.

Hər şey dəyişsə də "Kişilik qalar",
Zal Dədə adına möhürdü bu söz.
Zamanın bağrına atəş, od qalar,
Dan üzü açılan səhərdi bu söz.

Bir sözlə, ay dostum, qışın yaz olub,
Sözünə alovdan paltar biçmisən.
Sənin taleyində aydın yazılıb,
Zaman körpüsündən necə keçmisən?

Sən öz qələminlə, sən öz sözünlə,
Zamandan güclüsən, vaxtdan güclüsən.
Sazınla, sözünlə, elə özünlə,
Taledən güclüsən, baxtdan güclüsən.

"Vəslin edamı"na, "Zal ağacı"na,
Zaman təzim edər, dövran əyilər.
Zamanın, dövranın ehtiyacına,
Əyilən qəhrəman quldu, deyilər.

Gözəllik önündə, qürur önündə,
Təzimin, heyrətin sözdür, sənətdir.
Kişilik donunda, mərdlik donunda
Bu da bir məmləkət, bir səltənətdir.

İlham dalğaları - sənətin dili,
Danışır möhtəşəm "Zal ağacı"nı.
Dinləyir heyrətlə fikir sahili
Zamanla üz-üzə qal ağacını.

Ürəkdə od yanır, qəlbi köz-közdür
Min hikmət söyləyir sözün məcnunu.
Yarası qan verir, necə göz-gözdü,
Nalədi, fəryaddı sazın cünunu.

Dağlar sıralanıb - baxsan hər laya,
Vulkan yatağıdı, bir atəş yeri.
Misrası qaladı, kəlməsi qaya,
Hanı həmlə yeri, hanı "keş" yeri?

Göz-göz yara bağlar, məlhəmsiz dərdlər,
Arı pətəyidir, sinəsi şan-şan,
Hanı o kişilər, hanı o mərdlər -
Suallar porişan, sözlər porişan.

Vətən - "Zal ağacı" əbədi dastan,
Qarabağ inləyir dastan içində.
"Ah naz"dı, "Şahnazdı", "Şur"du gülüstan,
Uralanmış tağlar bostan içində.

Söz ilə vüsalda qol-boyun olan,
Sözün ozabıdı süzülən təri.
Sazından, sözündən dünyada qalan
Əbədi heykəldi - baxma ötəri.

Yusifin ahıdı göyə ucalan,
Işığa döndərər - səpər sözünü.
Nəğməsi, mizrabı ürəklər çalan,
İlham porisinin öpər gözünü.

Deyirəm Vətənin ürəyi, gözü
Şair keşikçidir yurda, yuvaya.
Əbədi sönməyən ocağı, közü,
Köksündən qorlanıb qalxar havaya.

* * *

Ocaq közə sevdalı,
Atəş gözə sevdalı,
Könlü sözə sevdalı,
Aşıq - Yusif Nəğməkar.

Mizrab teli dağlayar,
Tel sinədə ağlayar,
Meydan düyün bağlayar,
Ey şux - Yusif Nəğməkar.

İlin, ayın içində,
Qızıl toyun içində,
Bəxti oyun içində
Uşaq - Yusif Nəğməkar.

Haqqı, günahı görən,
Könüldə ahı görən,
Sirli sabahı görən -
Bir şıx - Yusif Nəğməkar.

Harda xeyir təkdisə,
Yalan toxum əkdisə,
Zülmət qılınc çəkdisə,
İşıq - Yusif Nəğməkar.

Hanı qançəkər soyu,
Dərdin, murazın toyu,
Dərman Arazın suyu -
Qaşıq - Yusif Nəğməkar.

* * *

Qövsi-quzeh üstə məndən keçən yol,
Sükutun dilində Araz payıdır.
Sənətdə yaşayan Oziz oğlu Zal
"Türkəş çalıyı"nın öz harayıdır.

Şairin ürəyi, qəlbi sevgidən,
Bir ömür ayardı "Zal ağacı"na.
Tanrıdan, ilhamdan gələn vergidən
İncilər düzüldü sözün tacına.

Araz damarından sözə qan verdi,
Təzə nəfəs gəlsin ölü canlara.
Haqqın dərgahına yolu göstərdi,
Tanrıya, göylərə əl açanlara.

Yurdun sinəsini yandırıb yaxan,
Araz ağrısıdı sözümün canı.
Yolların ağına boylanıb baxan,
Həsrət kül elədi Azərbaycanı.

Hökm edək, çağıraq söz silah alsın,
Misralar nizama düzülüb gəlsin.
Ruhların harayı qalxsın, ucalsın,
Hünərdən, təpərdən süzülüb gəlsin.

Əli Rza XƏLƏFLİ
2012